**Xalq qəzeti.** - 2024. - 4 fevral. - № 24.- S. 10.

# Heydər Əliyevin milli dövlət quruculuğu konsepsiyasının Naxçıvan mərhələsi

***("Bir millət, iki dövlət" kəlamı kontekstində)***

**Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Füzuli Qurbanov**

## I məqalə

### Hər şey sovet dövründən başladı

Ümummilli lider Heydər Əliyevin fəaliyyəti milli dövlətçiliyin müasir mərhələdə inkişafı baxımından çox qiymətli təcrübə, tarixi, nəzəri-politoloji və fəlsəfi salnamədir. Ulu öndərin siyasətlə məşğul olduğu müddətin elə bir anı yoxdur ki, dərin tarixi, siyasi, ideoloji və dövlətçilik məqamını özündə ehtiva etməsin. Buna görə də Heydər Əliyevin fəaliyyətinin sovet dövrü, Naxçıvan mərhələsi və müasir müstəqillik dövrü kimi təsnifatı yalnız tarixi-xroniki, nəzəri-politoloji və abstrakt fəlsəfi xarakter daşıyır. Reallıqda bu mərhələlərin hər biri ardıcıl, sistemli və öncədən strateji tərəfi düşünülmüş vahid fəaliyyətin fraqmentləridir. Faktlar və keçmiş təcrübə bu tezisin tam doğru olduğunu sübut edir. Bu kontekstdə deyə bilərik ki, hər şey sovet dövründən başladı.

### Sovet dövrü: real rəhbərlik və qeyri-formal liderliyin Heydər Əliyev nümunəsi

Kimsəyə bir daha sovetlərin fəlsəfi, tarixi, sosial, ideoloji kimliyini izah etməyə ehtiyac yoxdur. Lakin həmin dönəmdə "idarəetmə" və "rəhbər olma"nın məzmunu, üsulu və reallaşma imkanlarının fəlsəfi və politoloji "ölçülməsi" faydalı olardı. Məsələ ondan ibarətdir ki, həmin dövrdə, ümumiyyətlə, SSRİ-də liderlikdən danışmaq cinayət idi. Müttəfiq respublikaların rəhbəri kimi milli maraq gözləmək qatı cinayət idi və ağır bədəlləri olurdu. İdarəetmənin isə bütün şərtlərini Mərkəz müəyyən etmişdi, ondan kənara çıxmaq dövlət xəyanəti kimi qiymətləndirilirdi. Belə bir mürəkkəb, dolaşıq və risklərlə zəngin bir dövrdə müttəfiq respublikaya rəhbərlik etmək xüsusi siyasi məharət və iradi şücaət tələb edirdi. Mərkəz, hətta, respublika rəhbərlərinin şəxsi həyatına, ailə qurmaq işinə belə qarışırdı. Bunun fonunda isə respublikada hər hansı başqa addım atmağın nə demək olduğunu təsəvvür etmək çətin deyildi.

Sovetlərin bu reallıqlarında Azərbaycanla bağlı qorxunc bir niyyət də vardı. Mərkəz səviyyəsində Azərbaycanı respublika kimi ya çox zəiflətmək, ya da mümkün olsa, bütövlükdə ləğv etmək planı gizli işləyirdi. Bunun üç əlaməti vardı.

Birincisi, Azərbaycanda qeyri-azərbaycanlıların (oxu: əsasən milli düşüncəli türklərin) idarəetmə, nəzarət, qanunverici, təhlükəsizlik, asayişi təmin etmək kimi vacib sferalarda işləməsini maksimum dərəcədə məhdudlaşdırmaq xətti vardı. Bu xətt işə düzəlmə zamanı müxtəlif süni bəhanələrin gətirilməsi, tələlər qurulması, insanların müxtəlif üsullarla şərlənməsi, guya, məişət səviyyəsində meydana gəlmiş intriqaların burulğanına salınması və s. üsullarla həyata keçirilirdi.

İkincisi, yüksək səlahiyyətli idarəetməyə və təhlükəsizlik sisteminə rus qafalı (bunun tərkibi və fraqmenti kimi erməni, yəhudi, xristian qafalı) adamları doldururdular. Onlar azərbaycanlılarla düşmən kimi rəftar edir və hər kiçik imkanda zərər vururdular. Əsl Azərbaycan sevdalılarını psixoloji, mənəvi və fiziki olaraq sındırır, onlarda öz vətənlərinə ən azı laqeydlik hissi aşılayırdılar. Tezislərindən biri "ümumiyyətlə, azərbaycanlı ləyaqətsiz, bacarıqsız, dövlətin nə olduğunu bilməyən, rüşvətxor, alverçi, bazar adamı, cahil, radikal dindar, mədəniyyətin nə olduğunu anlamayandır". Bu fikri hər fürsətdə Azərbaycan cəmiyyətinin özündə belə yayırdılar və onun fonunda "əsl adam rus, erməni, gürcü, fransız, fars və s. kimi olar" psixologiyasını yeridirdilər. Bununla faktiki olaraq "azərbaycanlılıqla fəxr etməyin əsası yoxdur" şüarını yaradırdılar.

Üçüncüsü, ilk iki psixoloji təsir formasının fonunda daha qorxunc və təhlükəli bir xətti gizli yeridirdilər. Bu xəttin ümumi qayəsi, bütövlükdə, Azərbaycanın rəsmi surətdə ikinci dəfə parçalama (birinci parçalama Türkmənçay müqaviləsi ilə rəsmiləşmişdi) planları ilə bağlı idi.

Əslində, Azərbaycan SSR-də kadrları ölkəyə laqeyd olanlardan təşkil etmək, azərbaycanlıları psixoloji və hüquqi olaraq aşağılamaq və digər işlər yekunda "belə ölkə olmaz" fikrini formalaşdırıb, onu qonşular arasında (Rusiya, Ermənistan və Gürcüstan) bölmək niyyətini gerçəkləşdirmə üçün idi.

Onun konkret və daha dəhşətli təzahürü Mərkəzdə bir qrup adamın Xəzər dənizini qurudub neft çıxarmaq planını irəli sürməsində özünü tapdı. Bu, olduqca qorxunc və birbaşa Azərbaycanı ərazi kimi məhv etməyə hədəflənmiş planın reallaşmaması vicdanlı rus alimlərinin təsiri və Stalinin ölməsi ilə bağlı idi. Rus alimlər sübut etdilər ki, Xəzərin qurudulması Xəzəryanı ərazilərin qurumasına gətirib çıxaracaq və ayrıca Azərbaycan torpaqlarını suvarma imkanı olmayacaq. Buna qarşılıq respublikanın ortasında Kürün qabağını kəsməklə süni göl yaratmaq fikrini ortaya atdılar. Bu da faktiki olaraq Şimali Azərbaycanın ərazi tamlığının pozulması və quruda qalan hissələrin Rusiyaya, Ermənistana və Gürcüstana verilməsi üçün əsas yaratmaq idi.

Mərkəzin ciddi nəzarəti və total avtoritar, konyuktur, tam mərkəzçi siyasəti ilə Azərbaycana qarşı olan məkrli planların birləşməsi hansı anlama gəlir? Məncə, bu sualın cavabı aydındır. Yəni real olaraq Vətənimiz Azərbaycanı itirmək riski ilə ciddi surətdə xalq və yerli rəhbərlik üz-üzə qalmışdı. Bu iki güclü dağıdıcı siyasət dalğasının qarşısını almaq böyük dahilik, yüksək məntiqi zəka, siyasi iradə, ən əsası böyük Vətən sevgisi tələb edirdi! Eyni zamanda, prosesi davamlı olaraq aparmaqla qalib olmaq lazım idi, çünki yarımçıqlıq da məğlubiyyət idi.

Məhz bu cür taleyüklü və ölüm-qalım dilemması şəraitində ağır yükü Heydər Əliyev çəkinmədən çiyinlərinə götürdü. Ulu öndərin təhlükəsizlik sistemində və sonra siyasi sahədə uğurlu karyerası olmasa idi, indi Azərbaycan mövcud olmaya bilərdi. Heydər Əliyev hər mərhələyə uyğun siyasəti elə apardı ki, Moskvanın dirənişini aşdı və planlarını həyata keçirdi. Onların üç aspektini burada qeyd edə bilərik.

Birincisi, Heydər Əliyev yorulmadan Azərbaycan mədəniyyət, elm və incəsənət xadimlərini müdafiə edərək milli mədəniyyətin var ola bilməsi tezisinə azərbaycanlıları inandırdı və düşmənlərlə yanaşı, dostların da beyninə yeritdi. Konkret olaraq, Heydər Əliyev milli düşüncəli Azərbaycan ziyalılarını məhv olmaqdan xilas etdi, onları himayəsinə götürdü və həm də tarixi şəxsiyyətlərin yubileylərini təntənəli surətdə təşkil etdi. Bütün bunlar dünyaya bir mesajı verirdi: “Azərbaycan mədəniyyət məkanı kimi vardır!”

İkincisi, Heydər Əliyev Azərbaycanın iqtisadi məkan kimi mövcud olması zərurətini həm azərbaycanlılara, həm Mərkəzə, həm də bütün dünyaya anlatdı. Bunu dalbadal keçici bayraqlar almaqla, SSRİ üzrə yüksək sosial-iqtisadi nəticələr göstərməklə və o dövrdə müasir olan zavod və fabriklər inşa etməklə sübuta yetirdi. Məsələn, kondisioner istehsal edən zavodun Azərbaycanda tikilməsi birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Bu da ikinci mesaj idi: “Azərbaycan iqtisadi məkan kimi bütövdür və azərbaycanlılar nizamlı iqtisadi sistem yarada bilirlər!”

Üçüncüsü, Heydər Əliyev ardıcıl olaraq və planlı surətdə Azərbaycanda kadrları milliləşdirdi. Məcazi mənada “azərbaycanlaşdırdı”. Həm də bunu etnik kontekstdə deyil, kadrların ilk olaraq Azərbaycanı düşünməsi, onun maraqlarına xidmət etməsi və azərbaycanlılıqla fəxr etməsi aspektlərində etdi. Onun reallaşma mexanizmi SSRİ-nin müxtəlif ali məktəblərinə gənc azərbaycanlıları təhsil almağa göndərməsi ilə bağlı idi. Nəticədə tarixi baxımdan qısa müddətdə respublikaya minlərlə Azərbaycan ruhlu kadrlar gəldi. Ulu öndərin bu addımı Mərkəzin Azərbaycana işləmək adı ilə çox sayda rus qadınlarını göndərmək planlarını tam məhdudlaşdırdı və onun sosial təsir gücünü minimuma endirdi. İndi məlum olur ki, bu, strateji aspektdə Heydər Əliyevin böyük siyasi-psixoloji töhfəsidir.

Beləliklə, sovet dövrü Heydər Əliyevin Azərbaycan SSR-ə real rəhbərliklə qeyri-formal xalq lideri olmağı sintez edən bir mərhələ kimi də təsəvvür edilə bilər. Həmin dövrdə Azərbaycan xalqının qəlbində Heydər Əliyevə sarsılmaz inam və etibar formalaşmışdı. Bu faktor müstəqillik mərhələsində olduqca ciddi rol oynadı.

## Naxçıvana qayıdış: yeni liderliyin çətin sınaqlarının başlanğıcı

Beləliklə, Heydər Əliyevin Azərbaycan SSR-ə real rəhbərliyi və qeyri-formal xalqa liderliyi ölkəni məhv olmaqdan xilas etdi. Eyni zamanda, sovet dövründəki fəaliyyət sonralar Heydər Əliyevin SSRİ-nin real rəhbərlərindən və liderlərindən biri olmaq üçün əsas yaratdı. Siyasi-nəzəri kontekstdə söhbət faktiki olaraq liderlik fəaliyyətinin böyük transformasiyasından gedir: bir türk lider İttifaqın qeyri-slavyan respublikalarından biri miqyasındakı fəaliyyəti sayəsində Ümumittifaq miqyasında liderə çevrilə bilmişdi! Bu, liderlik missiyası ilə miqyasının uğurlu sintezi deməkdir (akademik İsa Həbibbəyli mənasında). Ancaq bu irəliləyişin qarşısını Mərkəzdəki qərəzli qüvvələr aldı. Bu hadisə zaman baxımından həm də SSRİ-nin dağılmasına təsadüf etdi. O dövr çox qarışıq və riskli idi. Üstəlik, Heydər Əliyev xəstələnmişdi. Kremldə qərəzli planlar quranlar Ulu öndəri fiziki məhv etməyi düşünürdülər. Lakin Heydər Əliyev böyük məharətlə qurulan bütün tələləri neytrallaşdırdı və 1990-cı ildə Vətənə qayıtdı. 1990-cı il iyulun 22-də isə Ulu öndər artıq Naxçıvanda idi.

Bu qayıdışın müxtəlif aspektlərdə fəlsəfi və siyasi-nəzəri araşdırılmasına ciddi ehtiyac vardır. Çünki Heydər Əliyev sadəcə, doğma yurduna fiziki olaraq dönməmişdi, böyük siyasət xadiminin strateji məqsədi Azərbaycanın bir bölgəsi kimi Naxçıvanı qorumaq, saxlamaqla yanaşı, milli dövlət quruculuğunun bütün Azərbaycan miqyasında reallaşdırılması üçün Naxçıvanda onun bazasını yaratmaqla bağlı idi! Bu mənada Ulu öndərin fəaliyyətinin Naxçıvan mərhələsi fəlsəfi və politoloji olaraq müasir dövrdə müstəqil Azərbaycan dövlətçiliyinin ilkin mərhələsi və çox aspektlərdə həmin prosesin başlanğıc təcəssümüdür.

Prezident İlham Əliyevin həmin dövrə verdiyi qiymətdə ifadə olunan fikirlər də bu tezisi təsdiq edir. İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində ifadə etmişdir:

“Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi...O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi... Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək ulu öndərin ətrafında yumruq kimi sıx birləşdilər və həm erməni işğalına tutarlı cavab verdilər, onları yerində oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir”.

Akademik İsa Həbibbəyli həmin kontekstdə vurğulamışdır: “Azərbaycanın dövlət müstəqilliyi taleyində görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü xüsusi əhəmiyyətə malikdir”. Ulu öndər “...azərbaycançılıq düşüncəsinə real təminat əldə olunmasına...xüsusi diqqət yetirdiyi kimi, Naxçıvan Muxtar Respublikasının inkişaf etdirilməsinə də ümummilli vəzifələr səviyyəsində böyük qayğı göstərib, ölkənin maraqlarını qorumuşdur”. Ümummilli lider “...Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi xalqı öz ətrafında birləşdirərək, region dövlətləri ilə əlaqələri möhkəmləndirərək böyük güclərin təcavüzünə qarşı müqavimət hərəkatına bacarıqla rəhbərlik” etmişdir (İ. Həbibbəyli. Heydər Əliyev yolu: Naxçıvan reallıqları // “Azərbaycan” qəzeti, 16 aprel 2014-cü il).

**(ardı var)**